**UOT 76**
**https://doi.org/10.59849/2311-8482.2025.1.334**

**FATMA ŞAHBAZOVA***

# HÜSEYNQULU ƏLİYEVİN HEYKƏLTƏRAŞLIQ ƏSƏRLƏRİNİN BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏRİ

*Realist təsvir metoduna əsaslanan Hüseynqulu Əliyev yaradıcılığında rənglərin təzadına, şərtilik və dekorativlik əlamətlərinə üstünlük verir. O, rəngkarlıqla yanaşı heykəltəraşlığın da müxtəlif janrlarında uğurlu axtarışlar aparmaqla, xalqımızın tarixi keçmişini və müasir həyatını əks etdirən əsərlər yaradıb ki, onların muxtar respublikanın muzey ekspozisiyalarında uğurlar nümayiş etdirilməsi ilə, tamaşaçıların rəğbətini qazanmışdır. Heykəltəraş olaraq o, monumental abidə, dəzgah (büst-portretlər, barelyef-pannolar) heykəltəraşlığı, monumental-dekorativ plastika (kiçik ölçülü əsərlər) nümunələri yaratmaqla, bu sahələrin hər birinə özünəməxsus töhfələr vermişdir. Hüseynqulu Əliyevin heykəltəraşlıq əsərləri Naxçıvan şəhərinin və muxtar respublikanın bir neçə rayonlarının mənzərəli yerlərini bəzəyir, yerləşdiyi məkanın ümumi aurasına zənginlik bəxş etməkdədir. Ömrünü Əcəmi yurdu ilə bağlayan sənətkar vətəninin hər qarışını özü üçün ilham qaynağı seçməklə, arxada qalan illərdə bir-birindən baxımlı plastika nümunələri yaratmışdır. Əgər onun ürəyi vətən sevgisi ilə döyünür, desək. yanılmarıq. Naxçıvanın əzəmətli dağlarını, qayalarını, çiçəklərini, zümzüməli çaylarını, uçan quşlarını, ən nəhayət, əməksevər insanlarını öz əsərlərində müxtəlif forma-biçimdə tərənnüm etmişdir.*

*Açar sözlər: Monumental abidə, Büst-portretlər, Barelyef – pannolar, Heykəltəraş*

**Giriş.**

Hüseynqulu Əliyevin heykəltəraşlıq fəaliyyəti hələ tələbəlik illərindən başlanmışdır. Onun 1982-ci ildə diplom işiolaraq ərsəyə gətirdiyi "Sülh" adlı əsər bu sahədə əldə etdiyi nəzəri-təcrübi biliklərin uğurlu nəticəsi kimi qəbul olunur. Yığcam kompozisiyalı bu dekorativ pannoda havada uçan göyərçinlərə tərəf yönəli iki əlin açıq ovucları olduqca inandırıcı bir tutumda təsvir edilib. Bu təbiilikdə simvolik mahiyyət daşıyan göyərçini bədii baxımdan daha dekorativ formada canlandırmaqla, əsərin cəlbedici estetik tutum almasını şərtləndirmişdir. Burada mövzunuun məna-məzmun tutumunu hifz edən uğurlu kompozisiya quruluşu ilə yanaşı, eyni zamanda yüksək zövqün, estetikanın vəhdət halında təqdimatı ilə göz oxşayır. Tələbə təxəyyülünün məhsulu olan bu plastika nümunəsinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin interyerində yer alması da bu dekorativ-plastik pannonun uğurlu kompozisiya quruluşuna malik olduğunu təsdiqləyir. Belə ki, qanadlanaraq havada pərvaz edən iki göyərçinin qoşa təqdimatı zamanı onların qanad və baş hissələrinin uyğun ornamental formada – cəlbedici tutumda diqqəti cəlb etməsini şərtləndirmişdir. Bu ornamentallığın yaranmasında bədii improvizənin özünəməxsusluğu, rəssam-heykəltəraşın dərin mənalı formayaratma səriştəsinə malik olduğunu sərgiləyir.

**Əsas məzmun**

Onun "Mənim Naxçıvanım" (1982) adlı barelyefində isə fərqli məna-məzmun daşıyıcılığı ilə qarşılaşırıq. Belə ki, bu plastik nümunənin mərkəzində ailə, kənarlarında əməksevər xalq təsvir edilmişdir. Haqqında söz açdığımız əsərin kompozisiyasında Hüseynqulu Əliyevin əsas məqsədi hər hansı bir təbiət motivini və yaxud mənzərəni deyil, məhz məkanın xarakterikliyi seçilən mühitinin milli çalarlarını, onun xüsusiyyətlərini qabarıq planda əks etdirməkdən ibarət olmuşdur. Üç hissədən ibarət olan əsərin birinci planında Naxçıvanın gözəl təbiətinin qoynunda qoyun otaran çobanın real tərənnümü canlandırılmışdır. Çoxfiqurlu kompozisiyada rəssam əsərin bədii ifadəsini elə formada canlandırmışdır ki, tamaşaçı perspektivə doğru uzanan təbiət mənzərəsinin gözəlliyini duymaqda çətinlik çəkmir. Çoban libasında, əlində çomaq tutan obrazın milliliyi sadəcə onun zahirinin təqdimatı ilə deyil, eyni zamanda mühit və obraz uğurlu sintezində özünü aydın şəkildə büruzə verir.

Mərkəzdə qucağında kiçik övladını məhəbbətlə saxlayan atanın bədii əksi canlandırılmışdır. Burada rəssam davam edən nəsli, onun milli ruhunu uğurla canlandıran sənətkar yenə də mühit və insan əlaqələndirməsinin mükəmməlliyində məqsədinə nail olmağı bacarmışdır. Plastik həll zamanı parçaların dalğalanan tərəfləri, bir-birinə keçidi özlüyündə sənətkarın ustad məharətini bir daha

təsdiqləməkdədir.

Əsərin sağ qismində verilmiş kompozisiyada isə Naxçıvanın bol bəhrəli bağları, həmin bağlarda çalışan qadınların zəhmətlə yanaşı, nikbin ruhlarını əks etdirən obrazları real formalarla öz həllini tapmışdır. Burada üzümlüyün tərənnümündə tənəklərin iri planda verilməsi, boynu üzərində dolu səbəti daşıyan, yerdə əyləşərək üzümləri seçən və digər qadın obrazlarının ifadəsində rəssam-heykəltəraş mühitin xarakterik ab-havasını hiss etdirməyə çalışmış və buna uğurla nail ola bilmişdir.

Rəssamın əsərləri Naxçıvan, Bakı, Tiflis, Kiyev, Xarkov, Moskva, Aşqabad, Seul, Xoy, Mahadan, Urmiya, Təbriz, İğdır, Kars , Bursa, Trabzon, İstanbul, Ankara və digər şəhərlərdə nümayiş olunub (1986-2021). Əsərləri: Norveç, Almaniya, Ukrayna, İran, Türkiyə kimi ölkələrdə İstanbul Beynəlxalq Karikatura Muzeyində, Azərbaycan Mədəniyyət Nazirliyində, Sərhəd xidmətləri "Şərq Muzeyi"ndə, Naxçıvan Dövlət Rəsm Qalereyasında, C. Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyində, Hüseyn Cavidin Naxçıvandakı Ev Muzeyində, Cəmşid Naxçıvanski Muzeyində, C.Məmmədquluzadənin Ev Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Xatirə Muzeyində, Məmməd Tağı Sidqinin Ev Muzeyində, C. Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyində və bir çox şəxsi kolleksiyalarda qorunub saxlanılır [3, s. 158, s-39]. Tanınmış rəssam Hüseynqulu Əliyev Naxçıvan şəhərindəki atlı "Koroğlu" heykəlinin ilkin variantının (indiki heykəl yenidən Çin Xalq Respublikasında bürüncdən tökülmüşdür [3, s.39]), "Diskatan", "Ana" monumental heykəlinin, "Bəhruz Kəngərli"nin memorial abidəsinin, "Heydər Əliyev" büstünün, Nehrəm və Vənənd kəndlərindəki şəhid büstlərinin və barelyeflərinin müəllifidir [2, s.441].

Hüseynqulu Əliyev heykəltəraşlıqda öz sözünü deyən sənətkarlardandır. Tişə ustası öz dövrü üçün xarakterik olan insan surətlərini təcəssüm etdirir. Naxçıvan şəhərinin cənub girişində 1988-ci ildə xalq qəhrəmanı Koroğlunun şərəfinə abidə ucaldılmışdır. Əgər onun Naxçıvanı bəzəyən "Koroğlu" və "Bəhruz bəy Kəngərlinin məzarüstü abidəsi"ni yerli muzeyləri bəzəyən rəngkarlıq tablolarını və qrafika nümunələri, eləcə də teatr tərtibatı nümunələri ilə birlikdə göz önünə gətirsək, onda özündə bir-birindən fərqli estetik tutum daşıyan həmin əsərlər tamaşaçı üçün maraqlı göründüyünü söyləmək olar [1].

Onun müəllifi olduğu "Koroğlu" heykəli milli azadlıq hərəkatının geniş yayıldığı vaxtlarda (1988) Naxçıvan şəhərində ucaldılmış və xalqımızın dövlət müstəqilliyi uğrunda mübarizəsinə ilhamverici rol oynamışdır. Naxçıvanın Koroğlu meydanındakı "Koroğlu" heykəli dinamik kompozisiyası ilə maraq doğurur. Tuncdan tökülmüş monumental abidə xalq qəhrəmanının əzəmətini nümayiş etdirir. Sənətkar Koroğlunu şahə qalxan Qıratın üstündə, döyüş zamanı, qələbə anında təsvir edib. Qürurverici faktdır ki, Azərbaycanda ucaldəlan ilk monumental atlı heykəlin müəllifi məhz Hüseynqulu Əliyev olmuşdur.

Tuncdan tökülmüş monumental abidə xalq qəhrəmanının əzəmətini nümayiş etdirir. Koroğlu Misri qılınc əlində şahə qalxmış əfsanəvi Qıratın belində dəli nərəsi ilə sanki Çənlibelin qoç igidlərini yağı düşmən üzərinə hücuma səsləməkdədir. İlkin variantı 1988-ci ildə betondan ucaldılmış abidəyə 2008-ci ildə tuncdan olan hissəsinə yeni forma-biçim verilmişdir.

Sənətşünas Ü.Veysəllinin qeyd etdiyi kimi, "Əsər bir də ona görə maraqlıdır ki, Azərbaycanda at üzərində ucaldılan ilk monumental abidədir" [6, s.108]. Naxçıvanda qoyulan bu möhtəşəm abidə heykəltəraşın yaradıcı imkanlarının getdikcə artdığını, onun peşəkar məharətinin xeyli yüksəldiyini göstərir. Heykəl olduqca əzəmətli, aydın və ahəngdar plastik formada həll olunmuşdur. Əsərə müxtəlif nöqtələrdən tamaşa etdikdə onun siluetinin yeni-yeni məziyyətləri üzə çıxır" [5, s.18].

Bəhruz bəy Kəngərlinin qəbirüstü abidəsi – Naxçıvanda şəhərində, İmamzadə kompleksinin cənub şərqində - gənc rəssamın uyuduğu məkanda qoyulmuş monumental sənət əsəridir.. Azərbaycanın ilk peşəkar rəssamı B. Kəngərlinin betondan hazırlanmış heykəli yerdən 80 sm hündürlükdə olan mərmər üzlü kürsü üzərində, ayaq üstdə yerləşdirilmişdir. Heykəli tunc rəngli – tunc tozu qarışığından hazırlanmış boya ilə rəngləyərək ona tunca oxşar rəng çaları vermişlər. Naxçıvan təbiətini vəsf etməkdən usanmayan gənc fırça ustasına həsr olunmuş tək fiqurlu kompozisiyada onun etüddən əvvəl ala biləcəyi pozalı obrazı canlandırılmışdır. Təkfiqurlu heykəlin ağırlıq mərkəzi sol ayağa və fiqurun sağ əliylə yerə söykədiyi etüd çərçivəsinə düşmüşdür. Sağ ayağın dizdən bükülü vəziyyəti ilə pencəyin ətəyinin dalğalanması, sol əllə çiyinə atılmış plaş kompozisiyanı canlandırmış və heykəlin

dinamikliyini artırmışdır. Fiqurun durduğu vəziyyət, doğma Naxçıvanın gözəlliklərinə dikilmiş, diqqətli gözləri və sağ əlində tutduğu boş çərçivə Bəhruzun qısa ömür məkanında çəkə bilmədiyi neçə-neçə mənzərələrlə dolub daşaraq heykəli tamamlayır və ona əbədiyaşarlıq verir. Abidə 1989-cu ildə qoyulmuşdur [2, s.40].

Hüseynqulu Əliyevin heykəltəraşlıq nümunələri Naxçıvan Muxtar Respublikasının bir sıra bölgələrinin gözoxşayan guşələrini bəzəyir. Onun monumental əsərləri yerləşdiyi məkanın və önündə qoyulduğu binanın mahiyyətini açıqlayır. Məsələn, Naxçıvan şəhər Olimpiya İdman Kompleksinin qarşısındakı "Disk atan" heykəli (2002, beton) bu qəbilədəndir. Hüseynqulu Əliyev "Disk atan" heykəlində böyük kürə formasında həll etdiyi pyedestal üzərində əlindəki diski var gücü ilə fırladıb irəli atmağa hazır olan idmançını təsvir edib. Mürəkkəb hərəkətdə verilmiş idmançının gərilmiş əzələləri peşəkarlıqla ərsəyə gətirilib və bu gərginlik onun mimikası ilə tam uyğunluq təşkil edir. Heykəlin icrasında üstünlük təşkil edən dairəvi formalara verilmişdir. Kompozisiyanın ümumi dairəvi quruluşu, idmançının açıq səma fonunda dəyirmi siluet kimi görünən başı, əlindəki diskə uyğun olaraq onun dayandığı postamenti də kürə görkəmində yaratmışdır.

Məlum olduğu kimi mövzusu Mironun eyni adlı əsrindən alınan heykəl onunla səsləşən bədii formada təqdim edilmişdir. Heykəl haqqında qeyd edilən fikirlərimizi Mironun "Disk atan" kompozisiyasının təhlil edərək də aydınlaşdıra bilərik. E.Kibrikə görə "Heykəltəraş burada insanın hərəkətindən, diskin fırlanması halından, fiziki gərginliyin son həddindən əlavə idmançının bədəninin əvvəlki vəziyyətini də, onun necə atmasını da, gərginliyi necə yığmasını da elə bil ki, ümumilikdə kütlə formasında seçib yığaraq göstərə bilmişdir. Əgər heykəltəraş idmançının bütün həyatını deyil, ancaq disk atdığı anın gərginliyini göstərsəydi bu halda dəqiqlik nisbətən az olardı"

Naxçıvan şəhərinin "Şəhidlər xiyabanında" 2014-cü ildə ucaldılan tunc "Ana abidəsi" bədii-psixoloji tutumu ilə onu müşahidə edənlərə güclü təsir göstərməkdədir. Doğrudan da sənətkarın dərdli ana obrazında həm də onun qüruru gözəl plastik ifadəsini tapmışdır.

Bu heykəltəraşlıq nümunəsi hər şeydən öncə plastika həllinin professionallığı ilə diqqəti cəlb edir. Əsərdə şəhid övladının məzarını ziyarətə gəlmiş ana təsvir olunub. Rəssam onun üzündəki dərin hüznü, kədəri qabarıq şəkildə təsvir edib. Onun nurlu çöhrəsindəki dərin hüznü və kədəri İntibah dövrünün məşhur heykəltəraş və rəssamı olan Mikelancelo Buonarottinin "Pyeta" əsərindəki Məryəm ana obrazını psixioloji vəziyyəti ilə müqayisə etmək olar. Belə ki, heykələ baxarkən tamaşaçının gözü qarşısında şəhid analarının ümumilləşdirilmiş obrazı canlanır. [4]

Heykələ baxarkən insanların gözü qarşısında şəhid anaların ümumiləşdirilmiş obrazı canlanır. Başında enli kəlağayısı ilə həll edilmiş qadının simasında verilmiş dərin kədər, onun bütün dünyaya meydan oxuyan cəsurluğu ilə də maraq yaradır. Əlində iki qərənfil tutaraq sadəcə doğma övladının deyil, bütün şəhidlərimizi yad edən ananın bədii ifadəsində rəssam qadınlığın ən yüksək mərtəbəsini fəth edən böyük bir dünyanı canlandırmağı bacarmışdır. Heykəlin kompozisiyası aydınlığı və tarazlığı ilə diqqəti cəlb edir. Fiqurun plastik yapmasının tamlığı ona monumental bir ümumiləşdirmə verir. Ayrı-ayrılıqda, incə detallar olmadan həll olunan formaların ciddiliyi və sadəliyi, sıx heykəltəraşlıq modelləşdirməsi obrazın aktivliyini və daxili gücünü vurğulayır.

Qürurla qeyd etməliyik ki, 2002-ci ildə yaradılmış bu heykəl nümunəsinin xalqımızın böyük bir tarixə şahidlik etdiyi bu günlərdə nə qədər aktual və təsirli olduğunu iddia etməkdə hər birimizə cəsarət verir.

Sənətkarın görkəmli şəxsiyyətlərə həsr etdiyi bir sıra heykəltəraşlıq nümunələri vardır. Onlardan biri ulu öndər Heydər Əliyevin hazırda Naxçıvan Tarix Muzeyində nümayiş olunan büstüdür. Mükəmməl dəqiqliklə işlədiyi bu əsərində müəllif öz yaradıcı məqsədinə uğurla nail olmuşdur. Müəllifin Heydər Əliyevi təsvir edən başqa bir əsəri də hazırda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin interyerini bəzəyən barelyefdir.

**Nəticə**

1. Müəllifin heykəltəraşlıq işlərinin fərqli üslublarla təqdimatı müəyyən olunmuşdur;
2. Müxtəlif janrlı plastika nümunələrində materialın məna-məzmun daşıyıcılığına təsiri üzə çıxarılmışdır;
3. Heykəltəraşın müxtəlif janrlı əsərlərində xarakter səciyyəviliyi problemi uğurla həll edilmişdir;

**ƏDƏBİYYAT**

1. Bəhruz bəy Kəngərlinin Davamçıları, Ziyadxan Əliyev, canveten.az/az/news/id-2542
2. Naxçıvan rəssamlarının ensiklopediyası. – Naxçıvan: Əcəmi, – 2021. – 158 s.
3. Nəcəfov M. Azərbaycan karikaturaçı rəssamları, Bakı: İşıq, 1972. 158.s
4. Salamzadə, Ə. Zeynalov, X. Təsviri sənətdə Heydər Əliyev obrazı – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu, – 2019.
5..Veysəlli Ü.N. Naxçıvan rəssamlarının yaradıcılığında portret janrının təşəkkülü. Bakı: ADMİU. -2011,№11, s. 156-161.
6. Вейсаллы, У.Н. Отражение народных традиций в творчестве современных художников Нахчывана // Эпический текст: Проблемы и перспективы изучения. Проблемы III Международной научной конференции 17-19 ноября, – 2010. – с.108-109.

***AMEA Naxçıvan Bölməsi***
***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***
***E-mail: fatma_sahbazova@hotmail.com***

**Fatma Shahbazova**

**ARTİSTİC AND AESTHETİC CHARACTERİSTİCS OF HUSEYNGULU ALİYEV'S SCULPTURAL WORKS**

Huseyngulu Aliyev, based on the realistic description method, prefers the contrast of colors, signs of conditionality and decorativeness in his work. Along with painting, he made successful searches in various genres of sculpture, creating works reflecting the historical past and modern life of our people and with their successful demonstration in the museum expositions of the autonomous republic, he won the sympathy of the audience. As a sculptor, he contributed to each of these fields by creating monumental monuments, easel (bust-portraits, bas-relief-panels) sculptures, monumental and decorative sculpture (works of three-dimensional art.) examples. Huseyngulu Aliyev's sculptural works adorn the picturesque places of Nakhchivan city and several regions of the autonomous republic, adding richness to the overall aura of the place where they are located. The artist, who spent his life in his homeland of Ajami, chose every inch of his homeland as a source of inspiration and created beautiful sculpture works in his remaining years. We wouldn't be wrong if we said that his heart beats with love for his homeland. He glorified the majestic mountains, rocks, flowers, humming rivers, flying birds and, finally, hardworking people of Nakhchivan in various forms in his works.

**Keywords:** *Monument, Bust-portraits, Bas-relief - panels, Sculptor*

**Фатма Шахбазова**

**ХУДОЖЕСТВЕННАЯ-ЭСТЕТИКА СКУЛЬПТУРНЫХ ПРОИЗВЕДЕНИЙ ГУСЕЙНГУЛУ АЛИЕВА**

Гусейнгулу Алиев, основываясь на методе реалистического изображения, в своих работах отдает предпочтение контрасту красок, условности и декоративным особенностям. Он успешно исследовал различные жанры скульптуры и живописи, создавал произведения, отражающие историческое прошлое и современную жизнь нашего народа, которые завоевали симпатии зрителей, проявив успех в музейных экспозициях автономной республики. Как скульптор внес уникальный вклад в каждую из этих областей, создав образцы монументальных памятников, станковой (бюст-портреты, барельефы) скульптуры, монументально-декоративной пластики

(произведения малого масштаба). Скульптурные произведения Гусейнгулу Алиева украшают живописные места города Нахчыван и ряда районов Автономной Республики, обогащая общую ауру места, где он расположен. Художник, связавший свою жизнь с родиной Аджами, выбрал каждый сантиметр своей родины источником вдохновения и за прошедшие годы создал прекрасные образцы пластики. Если его сердце бьется от любви к стране, мы не ошибемся. В своих произведениях он воспевал в различных образах величественные горы, скалы, цветы, журчащие реки, летающих птиц, трудолюбивых жителей Нахчывана.

***Ключевые слова:*** *Монументальный памятник, Бюсты-портреты, Барельеф-панно, Скульптор.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 27.01.2025**
**Son daxilolma tarixi:19.02.2025**